# Zəngəzur dəhlizi region ölkələrinin nəqliyyat-logistika imkanlarını artıracaq

**Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibə bir daha göstərdi ki, ölkəmizin regional siyasəti və qlobal inkişaf vizionu ardıcıl, sistemli və dəqiq hesablanmış strateji kurs üzərində qurulub. Dövlət başçısı müsahibəsində Azərbaycanın enerji təhlükəsizliyi, nəqliyyat infrastrukturunun genişlənməsi və yeni geosiyasi reallıqların formalaşmasındakı rolunu beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı.**

Jurnalistin Zəngəzur dəhlizi ilə bağlı ünvanladığı sualı şərh edən Azərbaycan liderinin XX əsrin əvvəllərində baş vermiş tarixi hadisələrə nəzər salması beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın bölgədəki strateji maraqlarını düzgün qiymətləndirməyə imkan verir. Tarixi faktlar göstərir ki, Zəngəzur həmişə Azərbaycanın bir parçası olub. Lakin XX əsrin əvvəllərində sovet hakimiyyəti tərəfindən verilən inzibati qərarlar nəticəsində Zəngəzur Ermənistanın tərkibinə daxil edilib. Bu addım, demək olar ki, Azərbaycanın Naxçıvanla quru əlaqəsini tamamilə kəsib və Naxçıvan Muxtar Respublikasının uzun illər blokadada qalmasına səbəb olub.

Prezident İlham Əliyev müsahibəsində də qeyd etdiyi kimi, bu bölgənin Ermənistana verilməsi təkcə regional etnik-siyasi tarazlığı pozmadı, həm də Azərbaycanın Naxçıvanla strateji kommunikasiya imkanlarını ciddi şəkildə məhdudlaşdırdı. Nəticədə Naxçıvan uzun müddət iqtisadi, sosial və logistik təcrid şəraitində qaldı. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələr yalnız İran və Türkiyə üzərindən mümkün oldu. Lakin 44 günlük Vətən müharibəsi Azərbaycan və ümumilikdə Cənubi Qafqaz üçün yeni geosiyasi reallıq yaratdı. İşğal olunmuş Azərbaycan torpaqları üzərində suverenliyin bərpası ilə yanaşı, Prezident İlham Əliyev strateji əhəmiyyət daşıyan yeni təşəbbüsləri də tələb kimi irəli sürdü. Müsahibədə dövlət başçısı xüsusilə Zəngəzur dəhlizinin bərpasının Azərbaycanın milli və regional maraqları baxımından fundamental əhəmiyyətini qeyd etdi. Bu dəhliz yalnız Naxçıvanla birbaşa quru əlaqəsini təmin etməyəcək, eyni zamanda regionun mühüm nəqliyyat arteriyalarından biri kimi beynəlxalq səviyyədə strateji rol oynayacaq. Müharibədən sonra aparılan regional və beynəlxalq müzakirələrdə dəhlizin istifadəyə verilməsi həmişə ön planda olub. Xüsusilə Vaşinqtonda keçirilən görüşlərdə dəhlizlə bağlı razılaşmanın əldə edilməsi üçün mühüm addımlar atılıb. Bu isə onu göstərir ki, Zəngəzur dəhlizi artıq yalnız regional maraqların obyekti deyil, həm də beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Zəngəzur dəhlizinin istifadəyə verilməsi ilə Azərbaycan beynəlxalq nəqliyyat xəritəsində daha güclü mövqeyə çıxacaq.

Prezident İlham Əliyev Zəngəzur dəhlizindən bəhs edərkən onun "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin kəsişdiyi, bu dəhlizlərin alternativ yolu kimi onun önəmini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Hazırda "Şimal-Cənub" nəqliyyat dəhlizi Rusiya, Azərbaycan və İran üzərindən Hind okeanı və Avropa bazarlarını birləşdirir. "Şərq-Qərb" dəhlizi isə Çin və Orta Asiya ölkələrindən yükləri Xəzər dənizi üzərindən Azərbaycana gətirərək buradan Gürcüstan və Türkiyə vasitəsilə Avropaya çatdırır. Zəngəzur dəhlizi bu iki strateji dəhlizin kəsişmə nöqtəsinə çevrilməklə regionun nəqliyyat-logistika imkanlarını qat-qat artıracaq. Bu dəhliz vasitəsilə Azərbaycan yalnız tranzit ölkə statusunu gücləndirmir, həm də Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevrilir.

2024-cü ildə "Azərbaycan Dəmir Yolları" QSC-nin məlumatına görə, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yükdaşımaların həcmi 2023-cü illə müqayisədə 28 faiz artaraq 814 min ton təşkil edib. Eyni zamanda "Şərq-Qərb" dəhlizində ümumi daşınan yük həcmi 33,258 milyon ton olub. Zəngəzur dəhlizinin açılması bu rəqəmləri əhəmiyyətli dərəcədə artıraraq Azərbaycanın tranzit gəlirlərini yüksəldəcək, regionun ümumi iqtisadi dinamizmini isə daha da canlandıracaqdır. İlkin mərhələdə Zəngəzur dəhlizinin 15 milyon ton yükdaşıma potensialı olması proqnozlaşdırılır. Bundan əlavə, Zəngəzur dəhlizi istifadəyə verildikdən sonra təkcə "Şərq-Qərb" dəhlizinin tərkib hissəsi olmayacaq. Avropanın şimalından başlayan və Fars körfəzinə qədər uzanan "Şimal-Cənub" dəhlizinin də tərkib hissəsi olacaq. Bu alternativ kommunikasiya-logistika şəbəkəsi Azərbaycanın tranzit ölkə rolunu daha da artıraraq regional və qlobal miqyasda ölkəmizin geosiyasi mövqeyini xeyli möhkəmləndirəcək.

Azərbaycan üçün Zəngəzur dəhlizi strateji baxımdan milli birliyin bərpası, iqtisadi inteqrasiyanın möhkəmləndirilməsi və geosiyasi çəkisinin artması deməkdir. Ermənistan üçün isə bu dəhlizin açılması tarixi fürsət xarakteri daşıyır.

Prezident İlham Əliyevin də səsləndirdiyi kimi, Ermənistan uzun illərdir ki, beynəlxalq kommunikasiya-logistika baxımından işğal səbəbindən blokada şəraitindədir və regional layihələrdən kənarda qalıb. Zəngəzur dəhlizi vasitəsilə Ermənistan həm Azərbaycan və Türkiyə ilə yeni iqtisadi əlaqələr qura, həm də beynəlxalq layihələrdə iştirak etmək imkanı əldə edə bilər. Əks halda, bu fürsətin dəyərləndirilməməsi Ermənistanın iqtisadi təcridini daha da dərinləşdirəcək. Regional baxımdan Zəngəzur dəhlizi Cənubi Qafqazda dayanıqlı sülhün və əməkdaşlığın təmin olunması üçün mühüm zəmin yaradır. Çünki bu layihə yalnız Azərbaycan və Ermənistanı deyil, Türkiyə, İran, Rusiya, Orta Asiya dövlətləri və Avropanı birləşdirən geniş coğrafiyanı əhatə edir. Qlobal baxımdan isə Zəngəzur dəhlizi Avrasiya məkanında alternativ və təhlükəsiz nəqliyyat marşrutu rolunu oynayacaq. Xüsusilə hazırkı geosiyasi gərginliklər fonunda Avropa və Asiya arasında yeni, sabit və təhlükəsiz logistika kanallarına ehtiyac artır.

Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibə həm Azərbaycanın əldə etdiyi nailiyyətlərin, həm də gələcək hədəflərinin geniş mənzərəsini təqdim edir. Müsahibə göstərir ki, Azərbaycan yalnız iqtisadi göstəricilərə görə deyil, həm də siyasi mövqeyinə görə regionda lider dövlətdir. Prezidentin hər bir çıxışı faktlara əsaslanır, real rəqəmlərlə dəstəklənir və gələcəyə yönəlmiş strateji baxışı əks etdirir. Azərbaycanın iqtisadi inkişaf modeli, enerji siyasəti, nəqliyyat dəhlizlərinin qurulması və sülh təşəbbüsləri həm ölkənin, həm də regionun gələcəyini müəyyən edir. Bu mənzərədə Azərbaycan yalnız öz maraqlarını müdafiə etmir, həm də region dövlətləri üçün yeni əməkdaşlıq imkanları yaradır. Ona görə də dövlət başçısının müsahibəsi, sadəcə, diplomatik açıqlama deyil, həm də Azərbaycanın gələcək vizionunun konseptual ifadəsidir.

***Mirtəhmasib RƏHİMOV,***
***Lerik rayonu***

Azərbaycan.- 2025.- 31 avqust (№184).- S.4.